

*Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir.*

Heydər Əliyev

# MÜBARİZ KEŞİKDƏ

30 aprel 2020-ci il
Cümə axşamı

№ 14 (3479)

www.mk.mia.gov.az

- polisazerbaycan

1933-cü ildən çıxır

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI


***Azərbaycan Prezidenti İlham Əliyev aprelin 23-də Naxçıvan Muxtar Respublikasında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin rəhbəri aprelin 24-də 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.***

***Dövlətimizin başçısı aprelin 25-də Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin qızı Feyzavər Turan Alpsarın vəfatını dərin kədər hissi ilə qarşıladığını bildirib.***

***Aprelin 27-də dövlətimizin başçısı Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətlərinə görə İlham Ərdəbil oğlu Quliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

***Ölkəmizin başçısı aprelin 27-də Azərbaycan – Rusiya Federasiyası dövlət sərhədində "Xanoba" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

***Aprelin 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bankın prezidenti Suma Çakrabarti arasında videokonfrans keçirilib.***

## BİRİNCİ VİTSE-PREZİDENTDƏN TƏBRİK



Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayının başlanması münasibətilə Azərbaycan xalqını və dünya müsəlmanlarını təbrik edib.

Birinci vitse-prezidentin rəsmi "Instagram" səhifəsində bununla bağlı etdiyi paylaşımda deyilir: "Ən xoş və saf hisslərlə aşılanan, xeyirxahlıq, mərhəmət və şəfqətin təntənəsini təcəssüm etdirən mübarək Ramazan ayının başlanması münasibətilə bütün Azərbaycan xalqını və dünya müsəlmanlarını səmimi-qəlbdən təbrik edirəm. İnanıram ki, bu müqəddəs ayda bütün dua və diləklərimiz qəbul olunacaq və Allah öz mərhəmətini dünyamızdan əsirgəməyəcəkdir. Hər birinizə möhkəm cansağlığı arzulayıram. Allah orucunuzu qəbul etsin!".

***Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il mayın 31-dək uzadılıb.***

## SUMQAYIT ŞƏHƏRİNDƏ MAGİSTRAL QAZ KƏMƏRİNİN AÇILIŞI



Aprelin 24-də Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib və Sumqayıt şəhər ictimaiyyətinin bir qrup nümayəndəsi ilə görüşüb.

Görüşdə çıxış edən dövlətimizin başçısı bildirib ki, bu vaxta qədər Sumqayıt bir xətt üzərində qazla təmin edilirdi. Son illərdə Sumqayıtda yaradılmış sənaye müəssisələri, sənaye klasterləri əlavə həcm tələb etdiyindən yeni qaz kəmərinin tikintisi zəruri idi. Uzunluğu 60 k ilometr olan bu böyük inşaat layihəsi, bu kəmər qısa müddət ərzində istifadəyə verilir və bu gündən artıq fəaliyyətə başlayır.

Bu layihənin ilk növbədə əhalini təbii qazla təmin etmək işində önəmli olduğunu diqqətə çatdıran Prezident vurğulayıb ki, Sumqayıtda qazlaşdırmanın səviyyəsi 100 faizdir. Bu ikinci xəttin işə düşməsi həm artan tələbatı ödəyəcək, eyni zamanda, ikinci sığorta layihə kimi sumqayıtlıları təmin edəcəkdir.

"Son illərdə Sumqayıt sənaye baxımından çox uğurla inkişaf edir. Burada bir çox önəmli layihələr icra edilibdir. Sumqayıt Texnologiyalar Parkı uzun illərdir ki, fəaliyyət göstərir. Hazırda Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin tikintisi davam edir. Onların arasında əyirici boya fabrikinin tikintisini xüsusi qeyd etməliyəm. Çünki bu, bizim xalçaçılıq sənayemizin inkişafı üçün çox önəmli layihədir. Eyni zamanda, şüşə zavodu da inşa edilir. Biz şüşələri xaricdən idxal edirik və bu zavod işə düşəndən sonra artıq idxaldan asılılığı aradan götürəcəyik".

Dövlətimizin başçısı qeyd edib ki, bu gün Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük müasir sənaye şəhəridir.

Daha sonra Prezident görülən işlərə diqqət çəkərək pandemiya dövründə, karantin rejimində insanlara xidmət göstərən Sumqayıt həkimlərinin fədakarlığının qürur hissi yaratdığını deyib, həkimlərlə birgə karantin rejiminə nəzarət edən polis işçilərinə də minnətdarlığını ifadə edib.

## ƏLAQƏLƏR İNKİŞAF EDİR

Aprelin 22-də Albaniya Respublikasının Prezidenti İlir Meta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Söhbət zamanı Azərbaycanla Albaniya arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub. Dövlət başçıları Trans-Adriatik qaz boru kəməri layihəsinin uğurla reallaşdırıldığını bildirərək, bunun həm ölkələrimiz arasında əlaqələrin, həm də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğulayıblar.

Telefon danışığı zamanı İlir Metanın Azərbaycana səfəri məmnunluqla xatırlanıb, bu səfərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi qeyd edilib.

Prezidentlər koronavirus pandemiyasına qarşı mübarizə ilə bağlı məsələlər ətrafında müzakirə apardılar.

Albaniya Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib.

*****

Aprelin 27-də Litva tərəfinin təşəbbüsü ilə Litva Respublikasının Prezidenti Qitanas Nauseda ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev videobağlantı formatında danışıblar.

Litva Prezidenti Qitanas Nauseda Ramazan ayı münasibətilə Azərbaycan Prezidentini təbrik edib.

Dövlət başçıları ikitərəfli münasibətlərə toxunaraq, siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu, iqtisadi-ticarət əlaqələrinin də bu səviyyəyə qaldırılmasının önəmini qeyd ediblər və pandemiya başa çatdıqdan sonra Hökumətlərarası Komissiyanın iclasının keçirilməsinin vacibliyini bildiriblər.

Litva Prezidenti Qitanas Nauseda Şərq Tərəfdaşlığına üzv ölkələrin bu ilin iyun ayında keçirilməsi nəzərdə tutulan Zirvə toplantısına hazırlıq dövründə Şərq Tərəfdaşlığı Proqramı və ümumilikdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin vəziyyəti ilə bağlı Prezident İlham Əliyevdən fikirlərini bölüşməyi xahiş edib.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan Şərq Tərəfdaşlığı Proqramında iştirak etməklə bərabər, Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin inkişafına önəm verir və bu təşkilatın doqquz ölkəsi ilə strateji tərəfdaşlıq münasibətlərinə dair sənədlər imzalamışdır. 2018-ci ildə Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədi siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələri əhatə edir.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə də fikir mübadiləsi aparılıb.

## DAHA 3042 MƏCBURİ KÖÇKÜN AİLƏSİ SEVİNƏCƏK

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 24-də Sumqayıt şəhərindəki yataqxanalarda müvəqqəti məskunlaşan 3042 məcburi köçkün ailəsi üçün Abşeron rayonu ərazisində yaşayış binalarından ibarət məhəllələrdə tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına məlumat verilib ki, Neft Fondundan ayrılmış vəsait hesabına Abşeron rayonunun ərazisində iki qəsəbə salınır. Qəsəbələrdən biri 1890 ailə, digəri isə 1152 ailə üçün nəzərdə tutulub. Birinci qəsəbədə 1512 şagird yerlik məktəb, 280 yerlik uşaq bağçası, klub icma mərkəzi var və musiqi məktəbi tikilir. Digər qəsəbədə doqquz mərtəbəli 29 yaşayış binası tikilir. Tikiliyə bu ilin yanvar ayının 15-dən başlanılıb, 2200 işçi qüvvəsi cəlb olunub, müasir texnikadan istifadə edilir. Tikinti şərtləri nəzərə alınmaqla işlər sürətlə davam edir və nəzərdə tutulur ki, noyabr ayının sonlarına kimi qəsəbə yaşayış üçün tam hazır olsun.

Qeyd edək ki, indiyədək Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində məcburi köçkünlərin mənzil-məişət və sosial problemlərinin həlli istiqamətində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə dövlətin həyata keçirdiyi siyasətə Heydər Əliyev Fondu da böyük töhfələr verib. Bu günədək 62.494 məcburi köçkün ailəsinin, ümumilikdə, bu qəbildən olan 315 min soydaşımızın mənzil-məişət şəraiti yaxşılaşdırılıb. 2020-ci ildə də bu işlərin davam etdirilməsi nəzərdə tutulur. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması məqsədilə reallaşdırılan tədbirlər ardıcıl xarakter alıb.

# REYTİNQ YÜKSƏLİR, NÜFUZ ARTIR

**Beynəlxalq təşkilatlar qlobal böhran dövründə də Prezident İlham Əliyevin reallaşdırdığı kompleks islahatları yüksək qiymətləndirirlər.**

Mart ayında dünyanın ən böyük beyin mərkəzlərindən olan "Heritage Foundation" tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2020" hesabatında Azərbaycan 16 pillə irəliləyərək 180 ölkə arasında 44-cü yerdə qərarlaşıb.

Azərbaycan builki hesabatda Asiya-Sakit Okean regionu ölkələri sırasından çıxarılaraq Avropa regionuna daxil edilib, iqtisadi azadlıq dərəcəsinə görə dünya üzrə orta göstəricidən (61.6) yuxarı, regional göstəricidən isə cəmi 0,5 bal ilə geri nəticə göstərib. Həmçinin "İqtisadi Azadlıq İndeksi 2020" üzrə Avropa regionunda 45 ölkə arasında 24-cü yerdə qərarlaşıb və regionda ən çox irəliləyən ölkələr arasında birinci yerdədir. Bundan əlavə, sözügedən indeks üzrə Azərbaycan, Polşa, Belçika, İspaniya, Fransa, Türkiyə, İtaliya və bu kimi ölkələr ilə müqayisədə ön sıralarda yer tutub.

Bundan əlavə, son iki ildə iki kredit reytinq agentliyi "Standard & Poor's" və "Fitch" təşkilatlarının hesabatlarında Azərbaycanın kredit reytinqi yüksəlib.

Dünya Bankı, Davos İqtisadi Forumu və ABŞ-ın İrs Fondunun son hesabatlarında Azərbaycanın mövqeyinin yaxşılaşması bir daha onu deməyə əsas verir ki, dünyanın reytinq tərtib edən bütün mötəbər qurumları Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatların real nəticələrini qəbul edir və Azərbaycanı MDB-də ən islahatçı ölkə kimi təsbit edirlər. Beynəlxalq təşkilatların reytinqləri cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü, kompleks və köklü iqtisadi islahatlara verilən qiymətdir. Bütün bunlar Azərbaycanın güclü ölkə kimi inkişaf edən dünyada nüfuzunu günbəgün artırır.




# Bu dəstək bizə güc verir

“ASAN Könüllüləri" Təşkilatı "Azərsun" Holdinqin xüsusi karantin rejimi dövründəki sosial təşəbbüsünə dəstək göstərib.

4 gün müddətini əhatə edəcək layihə çərçivəsində Bakı şəhəri ərazisində 2 növbə üzrə 160 stasionar postda xidmət aparan polis əməkdaşlarına ASAN könüllüləri tərəfindən "Azərsun" məhsulları və çay termosları hədiyyə olunub.



#VAROLUN sosial çağırışı ilə həyata keçiriləcək layihənin məqsədi xüsusi karantin rejimi dövründə fasiləsiz xidmət edən polislərə vətəndaşlarımızın təşəkkür mesajının çatdırılmasıdır.

Daxili İşlər Nazirliyi də öz növbəsində bu layihənin təşəbbüskarlarına təşəkkür edərək, bu dəstəyin onların fasiləsiz xidmətə cəlb olunan bütün əməkdaşlarında güc, həvəs yaratdığını və onların vəzifələrinin layiqincə həyata keçirilməsində ruhlandırdığını qeyd edib.

# OPERATİV QƏRARGAHDAN

COVID-19 virusu ilə bağlı ölkəmizdə hazırkı sanitar-epidemioloji vəziyyət, xüsusilə də xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma halları təhlil edilmiş və 27 aprel 2020-ci il tarixindən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verilmişdir.

Beləliklə, ölkə üzrə 27 aprel 2020-ci il saat 00:00-dan etibarən:

1) “ASAN Xidmət” Mərkəzlərində vətəndaşların qəbulu ASAN mobil tətbiqi, internet saytı və çağrı mərkəzləri vasitəsi ilə əvvəlcədən onlayn növbə tutmaqla həyata keçirilməyə başlayır.

2) Aşağıda qeyd edilən iş və xidmət sahələrində fəaliyyət bərpa olunur:

- fərdi tədris və repetitor xidmətləri (qrup halında məşğələlər istisna olmaqla)
- kitab satışı
- qəzet satışı
- dəftərxana mallarının satışı
- çap və sürətçıxarma fəaliyyəti
- fotoatelye/fotostudiyalar
- fərdi mənzillərdə təmizlik xidmətləri
- dərzi xidmətləri
- kosmetika və ətriyyat satışı
- geyim satışı
- ayyaqqabı və dəri məmulatlarının satışı
- qızıl, digər bəzək əşyalarının satışı və lombard fəaliyyəti
- mobil cihazların, ehtiyat hissələrinin və aksesuarlarının satışı və təmiri
- kompüter avadanlıqlarının satışı və təmiri
- elektronika və məişət texnikasının satışı
- mebel satışı
- avtomobil satışı
- kimyəvi məhsulların satışı
- gül və bitki məhsullarının satışı
- kənd təsərrüfatı texnikasının, ehtiyat hissələrinin və avadanlıqlarının satışı
- gübrə və aqrokimyəvi məhsulların satışı

**Ticarət Mərkəzləri və “Mall”ların nəzdində qeyd olunan sahələrin fəaliyyətinə məhdudiyyət qüvvədə qalır.**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Ölkə ərazisində tətbiq edilmiş xüsusi karantin rejimi dövründə xidməti vəsiqə və ya iş yeri haqqında arayış əsasında hərəkətinə yol verilən, eləcə də barəsindəki məlumatlar işəgötürən tərəfindən icaze.e-gov.az portalına daxil edilmiş şəxslər yalnız həftənin iş günlərində icazə almadan hərəkət edə bilərlər.

Lakin son günlər bu kateqoriyadan olan bəzi şəxslərin zərurət olmadan küçələrdə saatlarla sərbəst hərəkət etməsi, nəqliyyat vasitələri ilə avtomobil yollarında sıxlığı artırması, nəticədə isə infeksiyanın yayılmasına şərait yaranması kimi neqativ vəziyyət müşahidə edilir. Bu cür halların yolverilməzliyi baxımından həmin şəxslərdən qeyri-iş günlərində müvafiq icazələrdən sui-istifadə etməmək, yalnız ciddi zərurətlə əlaqədar yaşayış ünvanını tərk etmək tələb olunur.

Eyni zamanda, müvafiq icazə ilə evdən çıxan hər bir şəxsə mütləq qaydada tibbi maskadan istifadə etmək və 2 metrlik sosial izolyasiya məsafəsini saxlamaq tövsiyə edilir.

# Kökdən gələn istedad

**"Polis haqqında Azərbaycan Respublikasının Qanunu"nda yazlıb ki, polis əməkdaşı elmi və bədii yaradıcılıqla məşğul ola bilər. Bu gün Azərbaycan polisi asayişi qorumaqla, cinayətkarlıqla qətiyyətli mübarizə aparmaqla yanaşı, film çəkir, mahnı bəstələyir, rəssamlıqla məşğul olur, şeir, roman da yazır.**

**“Xilaskar mələklər”,”Şəhidim”, “Qarabağımız”, “Hədəf”, “Ümid”, “Əbədi sevgim”. Siyahını uzatmaq olar. Bu qısametrajlı filmləri izləsəniz həmkarımızın-Azərbaycan Polisinin Vətənə, torpağa sevgisini, yaradıcılıq imkanlarını görəcəksiniz. Məna yükü dərin olan və diqqət çəkən bu filmlərdə sabitliyin keşiyində ayıq-sayıq duran polisimizin mənəvi dünyasının zənginliyinin, dünyagörüşünün, hadisələri müşahidə qabiliyyətinin şahidi olduq.**

Atası dünyasını dəyişəndə on yaşı vardı...

“Həyat adlı şahmat taxtasında mən şahımı-atamı itirdim. O gündən elə bildim ki, atamla birlikdə mənim gələcəyimi də dəfn etdilər. Ağlayırdım, ancaq mən göz yaşlarımla anam kimi danışa bilirdim. Rəngli idi anamın göz yaşları. Böyüdükcə ata adlı varlığın necə böyük qüdrət sahibi olduğunu gördüm. Bilirsiniz, bunu nə vaxt hiss etdim: dalaşdığım uşaqlar atası ilə məni qorxudanda...”

O, beləcə ötənləri xatırlayıb bu gündən dünənə boylanır. Çünki dünənində atalı olan uşaqlığı qalıb...



Həmkarımız polis serjantı **Kərim Gümrah oğlu Rəhimov** 1985-ci ildə Bakıda doğulub. “Əsrin ilk məzunları” məktəbinin məzunudur. Azərbaycan Beynəlxalq Universitetinin “Maliyyə və kredit” fakültəsini bitirib. 2012-ci ildən Bakı şəhər Baş Polis İdarəsinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin Təhlükəsiz Şəhər Xidmətinin operatoru vəzifəsində xidmət edir. Kompüter üzrə bacarıqlı mütəxəssisdir.

Anası Nuriyyə Rəhimova uzun illərdir sıralarımızda çalışır. Bakı şəhər Baş Polis İdarəsinin Növbətçi Hissələri İdarəetmə Xidmətində dəftərxana müdiridir.

Vaqif Mustafazadənin və Ceyhun Mirzəyevin rejissorluğu ilə həyat qazanan “Bəyin oğurlanması” bədii filmində elçiliyə gələnlərdən birinin sözünü kəsən xalq artisti Yaşar Nurinin sonradan: “Nə var, nə yox? Sən söhbətini elə Brodyaqa” dediyi obrazı-Azərbaycan SSR Dövlət Mükafatı laureatı Gümrah Rəhimovu xatırladınızmı? Xatırladınız, çünki üzünüzə gülüş qondu. Kərim onun ailəsində dünyaya göz açıb.

Atasının çəkildiyi filmlər və oynadığı rollar oldu ilk müəllimi. Atasından yaddaşında qalan xatirələrdən böyük olan Kərim “Ömrün səhifələri” adlı qısametrajlı filmlə rejissorluq bacarığını ortaya qoydu və istedadın gendən gəldiyini sübut etdi.

Beləcə ötən illər ərzində hadisələrə münasibəti dəyişib. Gözü tutduğu, içini tərpətdiyi müşahidələrini filmlərə çevirir. Bütün filmlərinin ideya müəllifi özüdür. Rejissorluq, operatorluq, montaj işlərində bacarıqlarını bu gün də təkmilləşdirir. Əsas işinin öhdəsindən layiqincə gəldiyi kimi, çətinliklərə baxmayaraq, yaradıcılığına da vaxt ayırır. Adını, soyadını “Google” məlumat portalında axtarışa versək gözlərimiz önündə polisimizin fikir dünyasının rəngarəngliyini əhatə edən, istedadla ərsəyə gələn filmlərin sehirinə düşərik. Kərim yaşadıqlarını, müşahidələrini sözə, fikrə çevirməyi və lentə almağı bacarır.

***2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə reallaşdırılan “Bakı Oskar 2” adlı qısametrajlı film festivalına təqdim edilən filmlərdən seçilib finala çıxan 10 filmin arasında Kərim Rəhimovun “Hədəf” filmi də vardı.*** Film 1942-ci ildə Stalinqrad şəhərinin müdafiəsi uğrunda döyüşən iki əsgərin mübarizliyindən bəhs edir.

***Heydər Əliyev Fondunun təşkilatçılığı ilə 2017-ci ildə keçirilən “Azərbaycan ailəsi” 9-cu film festivalında Kərim Rəhimovun “Ümid” bədii filmi diplom və xüsusi mükafata layiq görülüb. Şəhid***



***atalarının xəyallarını filmə çevrib həmkarımız.***

“Şəhidim” filmində radioda 2016-cı il Aprel döyüşlərində şəhid olan Azərbaycan ordusunun əsgərləri haqqında məlumatı eşidərək keçmiş döyüş yoldaşlarını yada salan, ayağa qalxıb döyüşmək, əvvəlki gücü və şücaətini göstərmək istəyən, lakin bunun mümkünsüzlüyünü hiss edən Vətən övladının yaşadığı hisslərin şahidi olmaq istəyirsinizsə, o zaman, vaxt itirmədən filmə baxın.

“Şəhidimiz var” filmi ilə bizlərə çağırış edir polis serjantı Kərim Rəhimov. Mübariz İbrahimovun, Fərid Əhmədovun və Əhməd Abdullayevin timsalında düşmən tapdağında qalan torpaqlarımızı azad etməyin vaxtının çoxdan çatdığını deyir.

Kino üzrə mütəxəssis olmasaq da sözə simsar kimi onu deyə bilərik ki, həmkarımızın filmlərinin səsi-sorağı çox yaxın zamanda beynəlxalq festivallardan gələcək.

Yazımıza hələlik nöqtə qoyuruq, çünki söz indi onundur:

“...Hər dəqiqənin öz hökmü olduğu kimi, aldığım nəfəsin necə qiymətli olduğunu anlayıram. Uğursuz addımlara gülümsəyərək, yenidən addımlamaq kimi çətindir bu həyat. Xatirələrim gözümün önündə lent kimi fırlanır. O zaman uşaq idim, atamın siqaret tüstüsünün böyük bir həzzlə havaya üfürməsindən siqaretin yaxşı bir şey olduğunu zənn eləmişdim.. Hər gün səhər günəş doğarkən bu gözəl həyatda yaşamalı olduğunuz saylı günlərinizi azaldır. İnsana ziyan verən pis vərdişlərin qurbanı olmayın. Siqaret çəkirsinizsə, elə indi buna son qoyun. (“Oksimoron”).

“Uşaqlar, atanın siqareti hardadır?

-Siqaret, sənin sağlamlığın üçün zərərlidir. Biz istəmirik, sən öləsən” (“Xilaskar Mələklər. Siqaret çəkmə.”)

“Mən sizdən ötrü çox darıxırdım, amma çarəsiz idim. Əlim sizə çatmırdı. Bağışla oğlum... Anan səni min-bir əziyyətlə böyütdü. Öz gücü ilə ayaq üstündə dayandı. Məni bağışla oğul, gələcəkdə sən də ailə sahibi olacaqsan. Ailənin qədrini bil.” (“Əbədi sevgim.”)

"Adımız, canımız, tariximiz Qarabağ! Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdərə, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan... Biz hamımız **Qarabağıq !!!**" ("Qarabağımız.")

*Hafiz Təmirov,*
*Ruslan Vəliyev*

# DÜNYANI MƏRHƏMƏT XİLAS EDƏCƏK

**Pandemiyanın qarşısını almağın karantin və izolyasiya olduğu haqda dövrünün ən böyük alimlərindən olmuş İbn Sina (980-1037) dünyanı qara ölüm-taun bürüyərkən evdən çıxmamağı, toplum halında olmamağı, sirkə ilə əlləri silməyi tövsiyə edirdi. Ən əsası, qorxuya düşməməyi məsləhət görən "Həkimlər atası" qorxu hissinin insanın immun sistemini zəiflətdiyini, insan bədəninin virusla mübarizədə təslim olduğunu yazırdı. Bu da danılmaz faktdır ki, bütün dövrlərdə epidemiyanın qarşısını almaq müşkülə dönmüşdür.**

1820, 1920 və 2020-ci il. Bir çoxları yüz ildən bir baş verdiyi üçün bu illərdə yayılan pandemiyaları hansısa qüvvənin sanki planlı olaraq yaratması qənaətindədirlər. XIX əsrdən indiyə kimi 7 dəfə vəba epidemiya, Sars, donuz, quş qripləri canlar almaqdan yorulub səngimişkən koronavirus meydana gəldi. Bu epidemiya doğru-dürüst öyrənilməmiş dünyanın idarə olunan ilk pandemiyası adını aldı ki, buna da müxtəlif səbəblər vardır.



Zaman çalxalanıb durulacaq və çox mətləblər üzə çıxacaq. Dünyanı sarsıdan, ən güclü dövlətləri diz çökdürən bu virusun insana yarasadan, ilandan keçməsini, ya da labaratoriya şəraitində hazırlanıb mutasiya olunmasını müzakirə mövzusuna çevirmək zaman alır...

Həyatın başlanğıcından virus var və bilmək olmur nə zaman meydana atılacaq. Yenə də biraz keçmişə baş vuraq.



Birinci dünya müharibəsi dönəmində 1918-ci ilin aprel ayında Amerikada öldürücü qrip virusu yayıldı. İspaniya dövləti tərəfindən epidemiya elan edilməsi səbəbindən onu "İspan qripi" adlandırdılar. Bu virusun aclıq, yoxsulluq və anti-sanitariyadan qaynaqlandığını hesab edirdilər. Yüz milyona yaxın insanın ölümünə səbəb olan bu virus miqyasına görə ən təhlükəli hesab olunurdu. Hazırda dünyada daha iki pandemiya mövcuddur və gündəmi zəbt etməsə də sakit şəkildə ömrünü davam etdirir. Biri dünya sakinlərinin heç fərqinə varmadıqları-1981-ci ildən üzü bəri 60 milyon insanın yoluxduğu, yoluxanlardan 25 milyonunun öldüyü HİV virusudur. Digəri isə 1961-ci ildə İndoneziyada başlayıb 1970-ci ildə pik həddə çatmış vəba pandemiyasıdır ki, bu virus daha çox Afrika qitəsində yayılmışdır.

Dünyanın 18-ci pandemiyası-yeni tip koronavirus. Dünyanı lərzəyə gətirib insanları ətraf aləmdən izolə edən, sosial durumundan, cəmiyyətdə mövqeyindən, ağıl və iradəsindən asılı olmayaraq hər kəsə özünü sübut edən virus. Əslində, bu bəla insan olaraq həyatdakı missiyamızı yadımıza saldı. Təkcə özümüzü deyil, özgələrini düşünməyə də vadar etdi. Dünyanın düzəni dəyişdi. Zaman çoxlarının alışıq olmadığı çox sözləri hayqıraraq yox, pıçıltıyla diqtə etdi.

Bəlkə də çoxunuza qəribə gələr etdiklərim. Su kranını çox açmıram ki, israf olmasın. Afrikada susuzluqdan yananlar var. Yeməyi çox yemirəm ki, Yəməndə hər on dəqiqədə bir uşaq aclıqdan ölür. Göz oxşayan geyimləri alıb geyinmək istəmirəm ki, ayağı yalın, bir dəst paltarın ehtiyacını çəkənlər var. Məni qınamayın, əslində bütün bunlar həqiqətdir. Həqiqətdir ki, əvvəllər bir ailənin yerləşdirə biləcəyi bir paltar şkafına indi ailənin bir üzvünün paltarını yerləşdirmək olmur. Amma düşünən yoxdur ki, paltar insandan çox yaşayır. Qab-qazanın ömrü insandan uzundur.

Dünyanın bir ovuca yerləşən zamanında xeyirxahlığın dünyəvi bəlaya qarşı müharibəsinin əsgərləri olmaq məcburiyyətindəyik hər birimiz. Bəs belə bir zamanda dünyanı nə xilas edəcək?! Fyodor Dostoyevski dünyanı gözəllik xilas edəcək deyirdi.

Məncə, o, dünyanı mərhəmət və xeyirxahlıq xilas edəcək demək istəmişdir. Biz də o fikirdəyik...

*Afət Babayeva,*
*polis mayoru*

# İcazələrin müddəti artırıldı

**Aprelin 27-si saat 00:00-dan etibarən yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS məlumat göndərilərkən gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırılıb.**

Qeyd edilən tarixdən etibarən bəzi fəaliyyət sahələrinə dair məhdudiyyətlər aradan qaldırıldığından 8103 nömrəsinə icazə almaq üçün aşağıdakı hallarda müraciət olunacaqdır:

- 1 rəqəmi – təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə rayon və şəhər daxilində 3 saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);
- 2 rəqəmi – hazırda fəaliyyətinə icazə verilən sahələr üzrə xidmətlərdən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün (icazə 3 saat müddətinə gündə 1 dəfə verilir);
- 3 rəqəmi – yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün.

# MƏSULİYYƏT UĞURA YOL AÇIR

**Cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması sahəsində həyata keçirilən tədbirlər sonrakı dövr üçün stimuldur. Görülən işlər arxayınlığa əsas vermir. Vətəndaş məmnunluğuna nail olmaq üçün tələbkarlığın artırılması baş verə biləcək cinayətlərin vaxtında qarşısının alınmasında mühüm rol oynayır. İctimai nəzarət mexanizminin fəallığı hər bir əməkdaşımızı xidmətində, davranışında dönüş yaratmağa sövq edib.**

Saatlı RPŞ-yə bu dəfəki ezamiyyət zamanı bu ilin birinci rübü ərzində görülmüş işləri diqqətimizə çatdıran Şöbə rəisi, polis polkovniki Azər Tağıyev bildirdi ki, rayon ərazisində 36 cinayət qeydə alınıb ki, onların 92,5 faizi açılıb. O cümlədən ağır və xüsusilə ağır cinayətlərin 100 faiz açılması təmin edilib. Təsnifatına görə, hesabat dövründə cinayətlərin 1-i ağır və xüsusilə ağır, 21-i az ağır, 14-ü isə böyük ictimai təhlükə törətməyənlərdir. Qeyri-aşkar şəraitdə törədilən 12 cinayətin açılması 90,9 faiz təmin edilib. Mülkiyyət əleyhinə törədilən cinayətlərin açılması 93,3 faiz olmuşdur.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar qeydə alınan 9 cinayətdən 2-i satışla bağlıdır. Barələrində axtarış elan edilmiş 6 nəfərdən 5-i tutulub.

Ayrı-ayrı xidmət sahələrinin fəaliyyətinə nəzər salan şöbə rəisi əldə olunmuş müsbət nəticələrdə İstintaq Bölməsinin mühüm payı olduğunu da diqqətimizə çatdırdı. **Bölmə rəisi, polis kapitanı Xəyal Abasov** icraata ümumilikdə 33 cinayət işinin qəbul



edilərək istintaqının aparıldığını dedi. Qeyd olundu ki, 2020-ci ilin geridə qalan dövrü üzrə 16 şəxs barəsində 16 cinayət işinin istintaqı tamamlanıb və ittiham aktı tərtib edilərək baxılması üçün məhkəmələrə göndərilib, hesabat dövründə icraatına xitam verilmiş cinayət işləri olmayıb, 1 cinayət işi aidiyyatı üzrə Sabirabad RPŞ-nə göndərilib. Hesabat dövründə mülkiyyət əleyhinə yönəlmiş cinayətlər üzrə vətəndaşlara dəymiş ümumilikdə 28.734 manat maddi ziyanın 26.907 manatı ödənilib, ödəmə 93,6 faiz olub. İstintaq bölməsi tərəfindən icraatı dayandırılmış işlərdən rayon prokuroru tərəfindən ləğv edilən qərarlar, eləcə də məhkəmə və prokurorluq orqanları tərəfindən əlavə istintaqa qaytarılan cinayət işi olmamışdır.

X.Abasovla söhbət zamanı özü də daxil olmaqla bölmənin gənc əməkdaşlardan ibarət olması, işə məsuliyyətlə yanaşmaları diqqətimdən yayınmadı və fürsətdən istifadə edib öyrəndim ki, həmkarımız 1981-ci ildə Saatlı rayonunda doğulub. Hələ uşaq yaşlarından əmisinin polis mündiri onu ovsunlayıb. Uşaqlıq arzuları 2002-ci ildə reallığa çevrilib. Həmin il Saatlı Polis Şöbəsinin PPXT-da polis nəfəri kimi xidmətə başlayıb. Zabit olmaq arzusuyla 2003-cü ildə DİN-in Polis Akademiyasına qəbul olub. Təhsilini uğurla bitirən gənc polis leytenantının ilk iş yeri Xaçmaz RPŞ-nin Təhqiqat Bölməsi olub. 2012-ci ilin sentyabrından xidmət yeri Saatlı RPŞ-nin İstintaq Bölməsinə dəyişdirilib. Bu ilin mart ayında isə o rəhbərlik tərəfindən Bölmənin rəisi vəzifəsinə irəli çəkilib.

*Çingiz Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# Təhlillər göstərir ki...

**Məsuliyyət hissini unudanlar, cəmiyyət üçün sözün əsl mənasında, arzuolunmaz şəxslərə çevrilənlər törətdikləri əməllərin mahiyyətinə varmır, əksinə müxtəlif bəhanələr gətirərək özlərinə haqq qazandırmağa çalışırlar. Belələri vicdanlarından qaçsalar da asayiş keşikçilərindən qaça bilmirlər...**

Cinayət Məcəlləsi ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır. Cinayət qanununda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Mövzumuz Cinayət Məcəlləsi deyil. Haqqında danışmaq istədiklərimiz törətdikləri cinayətlərə görə qanunla cəzalananların əksəriyyətinin yenidən analoji hərəkətlər etməsidir.

Bununla bağlı suallarımızı cavablandıran DİN Baş Təşkilat-İnspeksiya İdarəsinin əməkdaşı 2019-2020-ci illərin yanvar-mart aylarında cinayətkarlığın vəziyyətinə dair statistikaya nəzər yetirəndə geridə qoyduğumuz üç ay ərzində DİN və Prokurorluq üzrə - az ağır cinayətlər, iqtisadi sahədə olan cinayətlər-bunlardan mülkiyyət əleyhinə olan cinayətlər, ictimai təhlükə və ictimai qayda əleyhinə cinayətlər-bunlardan xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayətlərin üstünlük təşkil etdiyini diqqətə çatdırdı.

Təhlillər göstərir ki, zərərli vərdişlərə yiyələnənlər onun təsir dairəsindən çıxmaqda çətinlik çəkirlər. Məhz sərxoşluq və narkotik vasitələrdən asılılıq onları qeyd olunan cinayətləri yenidən törətməyə təhrik edir.

Bu gün asayişin və təhlükəsizliyin keşiyində mətin dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan daxili işlər orqanlarının əməkdaşları tərəfindən əvvəllər məhkum olunmuşlarla profilaktiki-tərbiyəvi söhbətlər aparılır, cəmiyyətə adaptasiya olunmaları üçün tövsiyələr verilir. Ötən illə cari ilin I rübü ərzində baş vermiş cinayətlərin müqayisəli analizi göstərir ki, daxili işlər orqanlarının bu istiqamətdəki fəaliyyəti də qənaətbəxşdir.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# POLİSDƏN XÜSUSİ ƏMƏLİYYAT

**Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-texniki tədbir zamanı ölkə ərazisində bank sektoruna qarşı kiber cinayətlər törətməkdə təqsirli bilinən Bolqarıstan Respublikasının vətəndaşları Stoychev Marian Nikolov və Mladenov Vladislav Tsvetanov Bakı şəhəri ərazisində saxlanılıblar.**

Araşdırma zamanı müəyyən olunub ki, bu ilin fevral və mart aylarında ölkəmizə gələn qrup üzvləri əvvəlcədən hazırladıqları plana əsasən bankomat aparatlarına müdaxilələr edərək külli miqdarda pul vəsaitlərini mənimsəməyə cəhd göstəriblər. Onlar bankomat aparatlarının kart oxuyucu hissəsinə xüsusi qurğular yerləşdirib bu yolla müştərilərə məxsus kartların PİN kodları barədə məlumatları əldə edərək kartların qeydiyyatını aparıblar.

Saxlanılan şəxslər ifadələrində bildiriblər ki, kart məlumatlarını tam və hərtərəfli öyrəndikdən sonra hesablardakı pulları transmilli mütəşəkkil cinayətkar dəstənin Avropa ölkələrindəki digər üzvləri ilə birgə xarici banklarda saxta sənədlər əsasında açdıqları hesablara köçürəcəkmişlər.



Həmin şəxslərin paytaxt ərazisində kirayə yaşadığı mənzilə baxış zamanı çoxsaylı elektron məlumat daşıyıcıları, bank kartlarından məlumatları ələ keçirmək üçün qurğular, bankomatlara quraşdırılması nəzərdə tutulmuş xüsusi avadanlıqlar, noutbuklar, müdaxilə etdikləri bankomatların yerləşdiyi ərazilərin siyahısı və sxemləri, eləcə də digər maddi sübutlar aşkar olunaraq götürülüb. Qrup üzvləri bankomatlara müdaxilələr etmək üçün əldə etdikləri xüsusi qurğuları ətrafdakı insanlarda şübhə yaratmasın deyə daim özləri ilə gəzdirdikləri səsgücləndiricinin içində gizlədiblər.

Faktla bağlı Azərbaycan Respublikasının CM-nin 272.3, 177.2.3-1 və 177.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən elektron məlumat daşıyıcılarından və informasiya texnologiyalarından istifadə edilməklə törədilən oğurluq, kompüter məlumatlarını qanunsuz ələ keçirmə) maddələri ilə cinayət işi başlanılaraq M.Stoychev və V.Mladenov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Transmilli mütəşəkkil cinayətkar şəbəkənin Avropa ölkələrindəki əlaqələrinin müəyyən olunması, həmçinin saxlanılan şəxlərin digər cinayət əməllərinin aşkar edilməsi istiqamətində müvafiq əməliyyat-istintaq tədbirləri davam etdirilir.



*Anar Qafarov,*
*polis baş leytenantı*

# “Qapı ustası”...

Gecənin qaranlığında səsə oyanan Lalə İsmayılovanın: “Ay kişi, sənsən” haylanmasına: “Hə, mənəm”,-deyib 1 ədəd mobil telefonu, 30 manatı, min beş yüz manat dəyərində qızıl-zinət və gümüş əşyaları götürərək mənzildən çıxıb. Ancaq bu dəfə o, çox uzağa gedə bilməyib. Mənzil və obyektlərə açar seçmə yolu ilə daxil olan peşəkar “qapı ustası”, əvvəllər anoloji əməllərə görə məhkum olunmuş Emin Mirzəyev və “köməkçisi”, əvvəllər məhkum olunmuş Elçin Orucov əldə etdikləri qənimətləri qazanca çevirmək istəyərkən “isti izlər”lə asayiş keşikçiləri tərəfindən saxlanılıblar.



Suallarımı cavablandıran Yasamal RPİ 26-cı Polis Bölməsinin rəisi, polis polkovnik-leytenantı Faiq Bədəlovun bildirdi ki, daxil olmuş məlumat əsasında iş nəzarətə götürülüb. Bölmənin rəis müavini, polis mayoru Anar Şıxəliyev, əməliyyat müvəkkilləri, polis mayoru Rəvan Əliyev və polis leytenantı Musa Musayevdən ibarət əməliyyat-axtarış qrupu yaradılıb. Dərhal axtarış tədbirlərinə başlayan polis evin ətrafında olan müşahidə kameralarını izləyib, ekspert-kriminalistin iştirakı ilə hadisə yerindən əl-barmaq izləri götürülüb. Əvvəllər məhkum olunmuşlar, eləcə də açar seçmə yolu ilə oğurluq törətmiş şəxslər ətrafında həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində hadisəni törədənlər-E.Mirzəyev və E.Orucov yaxalanıblar.

Aparılan zəruri istintaq tədbirləri ilə müəyyən edilib ki, Emin müxtəlif vaxtlarda şəhər ərazisində “Onlayn Espresso Kofe” klubundan 8 min manat dəyərində kofe kapsulları, aparatları, noutbuk və planşetlər, “Dəniz” diş klinikasından noutbuk, içi boş seyf, daha 1 mənzildən 2 qol saatı, 1 televizor oğurlayıb. O, yalnız “Onlayn Espresso Kofe” klubundan oğurluq edərkən “köməkçi”dən istifadə edib. Polis əməkdaşlarının suallarını cavablandıran “qapı ustası” və “köməkçisi” narkotik asılılığından əziyyət çəkdikləri üçün oğurluğu özlərinə peşə seçdiklərini bildiriblər.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# MƏKTUB GƏLİB...

**Ədalətin təməli o zaman möhkəm olur ki, qanunu qoruyanlar onu pozmurlar. Dövləti güclü edən əsas amillərdən biri də budur. Bu gün tələbləri hər gün dəyişən dünya düzənində ölkəmizin öz mövqeyini qoruyub-saxlaması, güclülərin, dünyanı idarə etmək istəyənlərin deyil, öz siyasəti ilə idarə olunması dövlət və xalq arasında birliyin bariz nümunəsidir. Bu birliyi daha da möhkəmləndirmək, onu qorumaq üçün gecəli-gündüzlü xidməti ilə qürur duyanların sırasında birincidir Azərbaycan Polisi.**

Dövlət-xalq vəhdətində onun da danılmaz əməyi və mövqeyi var. Əzmkar xidmət hər zaman rəğbət doğurur. Məhz bunun nəticəsidir ki, polis xalqın güvənc yerinə çevrilib. DİN rəhbərliyi vətəndaşların problemlərinə qayğıyla yanaşmağı hər bir polis əməkdaşından tələb edir və zəruri vəzifə kimi qarşıya qoyur. Daxili İşlər Nazirliyinin rəsmi internet səhifəsinə, sosial şəbəkələrdəki səhifələrinə, o cümlədən redaksiyamıza paytaxt və regionlardan ünvanlanan məktublarda da vətəndaş-polis həmrəyliyi öz əksini tapır.

**Azərbaycan Respublikasının Əməkdar artisti Zaur Əmiraslanov** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda yazır: “Bu çətin məqamda mənim məktubuma çevik reaksiya verildiyinə, göstərilən köməyə görə özüm və ailəm adından dərin minnətdarlığımı bildirirəm. Dövlətimizlə, dövlətçiliyimizlə və Azərbaycan Polisi ilə qürur duyuram”.

Bir qrup Astara rayon sakini Daxili İşlər Nazirliyinə ünvanladıqları təşəkkür məktubunda koronavirus pandemiyasının qarşısının alınması məqsədilə əhali arasında aparılan maarifləndirmə işlərinə görə Şöbənin əməkdaşlarına minnətdarlıqlarını bildirirlər.

**Ağdamdan Ariz Hacıyev, Astaradan Aynurə Abdullayeva** ölkədə koronavirus pandemiyasına qarşı aparılan mübarizədə fəal və fasiləsiz xidmətlərinə, həyata keçirilən təhlükəsizlik tədbirlərinə, eləcə də vətəndaşlara göstərilən diqqət və qayğıya, görə DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə edirlər.

**Paytaxt sakini Seymur Əhədov** avtomobilindən pulunun və əşyalarının oğurlanması ilə bağlı etdiyi müraciətə operativ baxılaraq ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü yazır.

**Şamaxı rayon sakini Ağaqədir Osmanov və Mingəçevir şəhər sakini Rövşən İsmayılov** koronavirusa qarşı mübarizə çərçivəsində öz həyatlarını riskə ataraq onların təhlükəsizliyi üçün insanları “evdəqal” çağırışına əməl etməyə çağıran, bununla yanaşı, ehtiyacı olanların köməyinə çataraq həm də əsl vətəndaş mövqeyi nümayiş etdirən, xalqın xidmətçisi olmağı ilə fəxr edən Azərbaycan Polisinə təşəkkürlərini bildirirlər və hər kəsi qaydalara əməl etməklə həkimlərimizə, polislərimizə dəstək olmağa çağırırlar.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# QAYDA POZAN SÜRÜCÜNÜ POLİS TƏQİB EDƏ BİLƏRMİ?

**Bu sual sükan arxasında əyləşən hər kəsi maraqlandırır, müzakirə mövzusuna çevrilir.**

**Bu yazıda sürücü, yoxsa polis haqlıdır sualını cavablandıracaq və bir çox məqamlara aydınlıq gətirəcəyik.**



Sükan arxasında əyləşmiş sürücü avtomobili idarə edərkən öz mədəniyyətini, başqalarının hüquqlarına hörmətini, dövlətin qanunlarına tabe olduğunu nümayiş etdirməlidir.

"Yol hərəkəti haqqında" qanunun 85-ci maddəsinin "Qeyd" hissəsində göstərilir ki, nəqliyyat vasitəsinin dayandırılması fit və jezllə işarə verməklə və ya səsgücləndirici cihaz vasitəsilə sürücünün aydın görə və ya eşidə biləcəyi şəkildə tələb edilməlidir. Nəqliyyat vasitəsinin dayandırılması tələbi sürücü tərəfindən yerinə yetirilmədikdə, qayda pozuntusunun vaxtı, yeri, xarakteri, nəqliyyat vasitəsinin markası, rəngi, hərəkət istiqaməti, dövlət qeydiyyat nişanı və digər mühüm əlamətləri göstərilməklə DYP-nin digər əməkdaşlarına radio-cihaz vasitəsilə məlumat verilir və bundan sonra yazılı formada raport tərtib edilir.

Nəqliyyat vasitəsinin qanunsuz ələ keçirilməsi (qaçırılması) və ya sürücünün cinayət törətməkdə şübhəli olması barədə dəqiq məlumat olduqda, yaxud nəqliyyat vasitəsinin sürücüsü öz hərəkətləri ilə insan həyatına və sağlamlığına real təhlükə yaratdıqda, nəqliyyat vasitəsinin dayandırılması tələbini yerinə yetirməyən sürücünün nəqliyyat vasitəsi təhlükəsizlik şərtlərinə əməl edilməklə və müvafiq icra hakimiyyəti orqanının yuxarı vəzifəli şəxsinə radio-cihaz vasitəsilə məlumat verilməklə təqib edilə bilər. Həmin nəqliyyat vasitəsinin dayandırılmasına başqa imkan olmadıqda isə bu məqsədlə məcburi dayandırma vasitələrindən istifadə edilə bilər. Təcrübə göstərir ki, polisdən sərxoş, yol-nəqliyyat hadisəsi törədən, avtoxuliqanlıq edən və sənədləri qaydasında olmayan sürücülər qaçır.

Qanunda maraqlı məqamlar da əksini tapır. Məcburi dayandırılma vasitələri qanunda tam aydın izah olunmasa da, yola "kirpi" atıb avtomobilin təkərlərini deşməklə onu saxlatdırmaq, süni sıxlıq yaratmaqla və ya maşının vurularaq dayandırılması kimi hallar tətbiq oluna bilər.

Polisin “dur” əmrinə tabe olmayan sürücü 150 manat cərimələnə bilər. Əgər o, yol polisinə tabe olmayıb qaçarsa, əlavə olaraq İnzibati Xətalar Məcəlləsinin 327.3-cü maddəsinin tələbini pozmuş sayılır ki, bu əmələ görə də 80 manat cərimə nəzərdə tutulur. Sözsüz ki, sürücü tabesizlik göstərib qaçarkən maşını sürətlə idarə edir və bu zaman radara düşür. Üstəlik, digər qayda pozuntuları – işıqforun qırmızı işığında dayanmamaq, piyadaya yol verməmək, yolayrıcını keçmə, habelə ötmə-manevr etmə qaydalarını pozmaq halları da ortaya çıxır. Bu zaman isə İnzibati Xətalar Məcəlləsinin 511-ci maddəsinin 1-ci bəndi - avtoxuliqanlıq - sürücünü "ağuşuna alır". Həmin maddədə ictimai qaydanın və əhalinin dincliyinin, eləcə də yol hərəkəti qaydalarının müxtəlif üsullarla davamlı olaraq pozulması, cəmiyyətə açıqca hörmətsizlik nümayiş etdirilməsi əksini tapır ki, bu da sürücünün yol polisinə tabe olmayaraq qaçması zamanı baş verən hallardır. Bu zaman ən yaxşı halda sürücü nəqliyyat vasitəsini idarə etmək hüququndan 1 il müddətinə məhrum edilməklə 500 manatdan 750 manatadək cərimə oluna bilər. Yuxarıda sadalananlarla yanaşı, yol-hərəkəti qaydalarını daha kobud şəkildə pozan sürücülərin sürücülük hüququ 1 il müddətinə məhdudlaşdırılır, 15 gündən 1 ayadək inzibati qaydada həbs olunur.

Polisdən qaçarkən qəza törətmək, kiminsə ölümünə və ya yaralanmasına səbəb olmaq uzun illər azadlıqdan məhrum olmaq deməkdir.

Sizcə qaçmağa dəyərmi?

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

Aprelin 20-də və 25-də Səbail rayonu ərazisindən xüsusi karantin rejimi vaxtı hazır yeməklərin onlayn sifarişlərini müştərilərə çatdıran daşıma xidmətinin işçilərinə məxsus “Twister” və “Jonway” markalı mopedlərin oğurlanması barədə 9-cu Polis Bölməsinə müraciətlər daxil olmuşdur.

Səbail RPİ və 9-cu Polis Bölməsi əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində “Twister” markalı mopedi oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini Q.Eyvazov, “Jonway” markalı mopedi oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.Əsgərov və Lənkəran rayon sakini D.Əsgərzadə qısa müddətdə müəyyən edilərək saxlanılmışlar.

✦✦✦✦✦

Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Bölgəsində Regional Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Lənkəran rayonu ərazisində keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Gərmətük qəsəbə sakini Ə.Axundov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan 2,8 kiloqram heroin, 2 kiloqram 650 qram tiryək və 255 qrama yaxın metamfetamin aşkar edilərək götürülmüşdür.

✦✦✦✦✦

Bakı ŞBPİ Cinayət Axtarışı İdarəsi və Sabunçu RPİ 15-ci PB əməkdaşlarının birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 21-də E.İbadovanı tapançaya oxşar əşya ilə hədələyib 700 manatını quldurluq yolu ilə almaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş İ.Paşayev saxlanılmış və ondan alışqan-tapança götürülmüşdür.

✦✦✦✦✦

Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında Abşeron rayonu Masazır kəndində yaşayan, əvvəllər məhkum olunmuş S.Əliyevin evində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan 1 ədəd “BM” markalı tüfəng, 130 ədəd müxtəlif çaplı patron, 1 ədəd ov bıçağı və 14 qramdan artıq marixuana aşkar edilərək götürülmüşdür.

✦✦✦✦✦

Xətai RPİ 36-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki çay evlərinin birindən 950 manat dəyərində modem, səsgücləndirici, elektrik sobası, spirtli içki, bir kafedən 1500 manat dəyərində 3 ədəd televizor oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri, əvvəllər məhkum olunmuşlar O.Xəlilov və İ.Quliyev saxlanılmışlar. Ətraflarında aparılmış tədbirlərlə onların digər bir kafedən 700 manat dəyərində su qızdırıcısı və təmir-tikinti alətləri oğurlamaları da müəyyən edilmişdir.

# Aprel ayının 22-dən 28-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən, ötən həftə ərzində törədilmiş 164 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 37 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 74, o cümlədən borclu şəxs qismində axtarışda olan 17 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 15 nəfər ölmüş, 11 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 102 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Ötən il İranın hüquq mühafizə orqanları tərəfindən keçirilən əməliyyatlar nəticəsində 800 ton narkotik maddə müsadirə edilib. Bu barədə polis generalı Hüseyn Əştəri məlumat verib.

Polis orqanlarının Tehranda keçirilən onlayn forumunda çıxış edən H.Əştəri qeyd edib ki, hüquq mühafizə orqanları koronavirusla mübarizədə ön sıralarda olsalar da, narkotik qaçaqmalçılığına qarşı mübarizəni davam etdiriblər.

*****

***Birləşmiş Ərəb Əmirlikləri polisi koronavirusa yoluxan xəstələri göstərə bilən infraqırmızı kameralar və üz tanıma texnologiyası olan “ağıllı” dəbilqələrdən istifadə etməyə başlayıb. Bu barədə “Khaleej Times” qəzeti məlumat yayıb.***

***“Dəbilqələr beş metr məsafədə dəqiqədə 200 nəfərin hərarətini öyrənə bilir, yüksək hərarəti olan insanı müəyyən etdikdə isə siqnal verir. Dubaydakı bütün polis məntəqələri, həmçinin patrul stansiyaları, metro və avtovağzallarda yoxlamalar aparan patrul işçiləri belə dəbilqələrlə təchiz olunub”, - deyə nəşr yazıb.***

*****

Səudiyyə Ərəbistanı hökuməti qanun pozucularının qamçılanma üsulu ilə cəzalandırılması qaydasını ləğv edib. Ali Məhkəmənin qərarına əsasən, müvafiq maddələr üzrə təqsirli bilinənlər artıq qamçılanmayacaq. Həmin şəxslərin cəzası cərimə, yaxud həbslə əvəzlənəcək.

Hökumət rəsmiləri qərarın insan hüquqları üzrə aparılan islahatlarla əlaqəli olduğunu açıqlayıb.

*****

***Belçikanın Antverpen limanında balıq konteynerində ümumi dəyəri 200 milyon avro olan 4 tona yaxın kokain aşkarlanıb. Polis narkotik maddələrdən başqa, həmçinin 3 ədəd “Kalaşnikov” markalı avtomat silah müsadirə edib. İnsidentlə bağlı 14 Niderland vətəndaşı saxlanılıb. Faktla əlaqədar təhqiqat başlayıb.***

***BMT-nin dəniz daşımalarına nəzarət proqramı müəyyən edib ki, 2019-cu ildə Avropaya göndərilən kokain yükünün yarıya yaxını Antverpen şəhərindən keçir. İl ərzində 77 ton kokain məhz bu limandan digər Avropa şəhərlərinə göndərilir.***

*****

***ABŞ-da “Everytown for Gun Safety” təşkilatının dərc etdiyi məlumatda cari ilin mart ayından məktəb kampuslarında cəmi 7 atışma hadisəsi qeydə alınıb və xoşbəxtlikdən, bu hadisələrin heç biri adətən məktəblilərin ölümü və yaralanması ilə nəticələnən tipik məktəb atışmasına oxşamayıb. Odlu silah okeanın o tayında gənclər arasında ölüm hallarının əsas səbəbləri arasında avtomobil qəzalarından sonra ikinci yer tutur. Amerikalıların əksəriyyəti silaha sahibdir. Koronavirusun yayılması ilə bağlı böhran başlandıqdan sonra silah alan şəxslərin sayı da artıb. Bu, öz ailələrini cinayətlərin artmasından qorumaq tələbatı və vəziyyətin qeyri-müəyyənliyi ilə bağlıdır.***

*Natiq Cavadov*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
BURAXILIŞA MƏSUL: E.ZAHİDOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.044
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 15:00
Qiyməti 40 qəpik